# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №07 (47) • 21.02.2011

AzadliqRadiosu.az

Əli Həsənov: **"Korrupsiya ilə mübarizə davamlı olacaq"** səh.3

**Azad Rəhimov bahalı stadionun qiymətini açıqladı** səh.4

**Azərbaycanda terror təhlükəsi varmı?** səh.5

**"Пьющий" Азербайджан** səh.7

Obama: **"Dəyişiklik arzulayan xalqlara imkan verilməlidir"** səh.8

**Tanınmış yazıçı Rusiyanın tezliklə dağılacağını deyir** səh.11

**10 manata qulaq müayinəsi?..** səh.14

**Prezidentliyə namizəd imtahandan kəsildi** səh.15

## Naxçıvan sakini nazirin ona işgəncə verdiyini deyir



səh.9

## Metyu Brayza: «Antikorrupsiya təşəbbüslərini alqışlayırıq»

*«Biz Azərbaycan hökumətinin antikorrupsiya sahəsində son təşəbbüslərini alqışlayırıq. Təşəbbüsün davam etdirilməsində və daha da dərinləşdirilməsində kömək göstərməyə hazırıq».* Fevralın 17-də ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza bu fikri deyib: *«Bu, Misirdə baş verən son hadisələrə bir alternativdir».*

səh.13




**Pensiyalar cəmi 2 manat 30 qəpik artacaq** səh.13

**Azərbaycan mümkün inqilab ölkələrinin siyahısında** səh.5

Аяз Муталибов: **"Азербайджан идет по пути демократии"** səh.6

# M.Əliyev: «Elə etmək lazımdır ki, məmurlar istəsələr belə rüşvət ala bilməsinlər»




Mehman Əliyev

**«Panorama» verilişində «Turan» İnformasiya Agentliyinin direktoru Mehman Əliyev və Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu hökumətin korrupsiyaya qarşı elan etdiyi mübarizəni dəyərləndiriblər.**

Mehman Əliyev:

- Hələ qiymət vermək üçün çox tezdir. Bəziləri hesab edir ki, bu, qısamüddətli kampaniyadır. Yaxud da Misirdə baş verənlərin təsiridir. Ancaq mən belə hesab etmirəm. Bir dəfə demişəm, yenə deyirəm: bu, Dünya Bankı ilə həyata keçirilən layihənin tərkib hissəsidir. Bir il əvvəl heç kim gözləmirdi ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizə başlayacaq. İndi də çoxları buna inanmır. Ancaq mən buna optimist baxıram. Onu da deməliyəm ki, idarə və nazirliklərin bir-birilərinin ardınca kollegiya iclasları keçirməkləriylə məsələ bitmir. Sistemdə dəyişiklik edilməlidir. Elə bir mexanizm yaradılmalıdır ki, məmurlar istəsələr belə rüşvət ala bilməsinlər. Bu, beynəlxalq təşkilatların istəyidir. Azərbaycan bu yolu getməlidir. Bu yolu getməmək olmaz. Azərbaycan ya bu yolu gedəcək, ya da tamam avtoritar bir ölkəyə çevriləcək.

Mübariz Əhmədoğlu:

**«BU PROSES ÇOX YAXŞI GEDİR»**

- Mən də hesab edirəm ki, prosesə hələ qiymət vermək çox tezdir. Hələ ki, prosesin necə başladığına dəyər vermək olar. Mənim anladığıma görə də, bu proses çox yaxşı gedir. Həm korrupsiyanın qarşısını almaq üçün preventiv tədbirlərə, həm də kadr dəyişikliklərinə başlanıb . Bundan başqa, struktur dəyişiklikləri də həyata keçirilir...».

**- Bizə ən müxtəlif məlumatlar gəlir. Məsələn, notariuslarda rüşvətin yığışdırıldığı deyilir. Ancaq gömrükdə, vergidə vəziyyətin dəyişmədiyi bildirilir. Sizin müşahidəniz nədir?**

Mehman Əliyev:

- Ən müxtəlif məlumatlar gəlir. Bəzi sahibkarlar deyir ki, rüşvət yığışdırılır. Bəziləri isə deyir ki, elə həmin vəziyyətdir.

**- Siz mübarizənin yolun nədə görürsünüz?**

Mehman Əliyev:

**«PAKET İSLAHATLAR HƏYATA KEÇİRİLMƏLİDİR»**

- Məsələn, indi vahid yoxlama sistemi yaratmaqdan söhbət gedir. Yəni vergi, ya da başqa bir qurum yoxlamaya başlamaq istəsə, qeydiyyatdan keçməlidir. Bəlkə heç yoxlamaya icazə verilmədi. Məqsəd rüşvətə yönəlik yoxlamaların qarşısını almaqdır. Yaxud da beynəlxalq təşkilatların təklifi var. Sərhəddə Gürcüstan və Azərbaycan gömrükçülərinin vahid bir sistemini yaratmaq. Nəticədə həm süründürməçiliyin, həm də rüşvətxorluğun qarşısını almaq olar. Burada başqa məsələlər də var. Yəni paket islahatlar həyata keçirilməlidir...




Mübariz Əhmədoğlu

Mübariz Əhmədoğlu:

**«AĞIR MƏSƏLƏDİR...»**

- Mən burada Mehman Əliyevin bu məsələyə sağlam münasibətini görürəm. Bu məsələdə ictimai dəstək də çox önəmlidir. Ağır məsələdir. Hər şeyi öz adı ilə demək lazımdır. Heç kim şikayət etməyi donosbazlıq kimi dəyərləndirməməlidir...

***Babək Bəkir***




# «The Washington Post»dan Yaşar Əliyevə cavab

**Fevralın 16-da «The Washington Post» qəzeti ATƏT-in 2000-ci ildə Azərbaycanda seçkiləri müşahidə etmiş müşahidəçisi Mitchell Polmanın qeydini dərc edib.**

*«Azərbaycan Demokratiya üçün uzun yol getməlidir» adlı məqalədə müəllif yazır ki, səfir Yaşar Əliyev ATƏT-in Azərbaycanda 2008-ci il prezident seçkisiylə bağlı hesabatını yanlış xarakterizə edib:* «Səfir deyir ki, ATƏT hesabatında Azərbaycanın beynəlxalq seçki öhdəlikləri yönündə irəliləyiş qazandığını bildirib. Ancaq hesabatda Azərbaycanın bu istiqamətdə texniki məsələlər üzrə irəliləyişindən danışılıb. ATƏT-in veb saytında yer alan hesabatda deyilir: Seçkilərdə sağlam rəqabət, siyasi müzakirələr olmayıb, media mühiti məhdudlaşdırılıb, Bütün bunlar plüralistik və demokratik seçki prinsiplərinin əksinə olub. Bundan əlavə, ATƏT-in Azərbaycanda 2010-cu ildə keçirilən parlament seçkiləri barədə hesabatında deyilir: «Bu seçkilər bütünlükdə ölkənin demokratik inkişafı yolunda irəliləyiş üçün kifayət etməyib».

Fevralın 7-də «The Washington Post» qəzetinin redaktoru Fred Hayatt (Fred Hiatt) Misir hadisələrinə ABŞ-ın münasibəti və Vaşinqtonun müsəlman diktatorlarla bundan sonrakı mümkün davranışını təhlil edən məqalə yazıb. Məqalədə Azərbaycan haqqında da bir neçə fikir səslənib. Fevralın 14-də «The Washington Post» qəzeti Fred Hayattın yazısına cavab olaraq Azərbaycanın Amerikadakı səfiri Yaşar Əliyevin qəzetə göndərdiyi məktubu çap edib. «Azərbaycan demokratiyaya can atır» başlıqlı yazıda səfir Yaşar Əliyev yazırdı: «2008-ci il prezident seçkilərini ATƏT və Avropa Şurasından olan beynəlxalq müşahidəçilər əhəmiyyətli irəliləyiş kimi qiymətləndiriblər. Bu seçkilərdə İlham Əliyev böyük səs çoxluğu ilə qalib gəlib».

***Turxan Kərimov***

# Ərəb ölkələrində yeni mitinqlər



Liviya lideri Muammar Qaddafinin yaşıl kitab üstündə büstü uçurulur, 17 fevral 2011

### LİVİYADA TOQQUŞMALARDA 100-dən ÇOX ADAM HƏLAK OLUB

"Human Rights Watch" təşkilatı Liviyada nümayişlər dağıdılarkən 100-dən çox adamın öldürüldüyünü xəbər verir. Təkcə Benqazi şəhərində 35 adam həlak olub. Bəzi məlumatlara görə, aksiyaçılar şəhərdəki hava limanını ələ keçiriblər. Həftə ərzində ölkənin azı 4 şəhərində etiraz aksiyaları və toqquşmalar müşahidə olunub.
Amma hələlik paytaxt Tripolidə elə bir böyük gərginlik yaşanmır. Dövlət kütləvi informasiya vasitələri istənilən etiraz aksiyasının boğulacağını xəbərdarlıq edirlər. Facebook da daxil olmaqla ölkədə internet saytlarına blok qoyulub, bir neçə rayonda elektrik enerjisi kəsilib. Aksiyaçılar ölkədə islahatlar aparılmasını tələb edirlər. Liviya prezidenti Muammar Qaddafi 40 ildən çoxdur ki, hakimiyyətdədir.

### BƏHREYN KRALI ORDUNU MEYDANDAN ÇIXARDI, MİTİNQLƏR DAVAM EDİR

Bəhreyndə minlərlə nümayişçi şəhərin mərkəzi meydanına daxil olub. Xüsusi



Bəhreyndə hökumət əleyhdarları meydana toplaşır

təyinatlı polis dəstələri əvvəl nümayişçilərə qarşı güc tətbiq eləsələr də, sonradan meydanı tərk ediblər. Orduya şəhərin mərkəzi küçələrindən çıxmaq göstərişi verilib. Müxalifətdə olan şiə qrupu bundan əvvəl hakimiyyətin ümummilli dialoqa getmək təklifini rədd edib. Vefaq blokunun liderləri bildiriblər ki, ilk növbədə hökumət istefa verməli, ordu qüvvələri isə paytaxtın küçələrindən çəkilməlidir.
Bəhreyni sünni azlığı idarə edir. Aksiyaçılar hökumətin istefasını və şiələr qarşı ayrı-seçkiliyə son qoyulmasını tələb edirlər.

### YƏMƏNDƏ TOQQUŞMALAR DAVAM EDİR, DAHA BİR NƏFƏR HƏYATINI İTİRİB

Şənbə günü Yəmənin paytaxtı Sanaada prezident Ali Abdullah Salehin tərəfdar-



Sanaada polis mitinqçilərin yolunu kəsməyə çalışır, 18 fevral 2011

ları ilə əleyhdarları arasında baş vermiş toqquşmada azı 1 nəfərin öldüyü xəbər verilir. Toqquşma universitetin ərazisində, tələbələrin prezidentin istefası tələbilə keçirdiyi etiraz nümayişi zamanı baş verib. Ölən tələbədir. 10 gündür ki, ölkədə etiraz aksiyaları keçirilir. Bu müddət ərzində baş vermiş toqquşmalarda 10 adam ölüb.

### ƏLCƏZAİRDƏ MİTİNQÇİLƏR POLİSİN MÜQAVİMƏTİNİ QIRIB MEYDANA DAXİL OLUB

Polis şəhərin mərkəzi meydanına gedən yolları bağlasa da, bir qrup aksiyaçı səddi yararaq meydana girib. Ötən bazar günü şəhərdə nümayiş keçirmək cəhdi polislə güclü toqquşmalarla nəticələndi. Əlcəzair müxalifəti ölkədə islahatlar aparılmasını tələb edir. Hakimiyyət 19 ildir ki, ölkədə tətbiq olunmuş fövqəladə vəziyyət rejiminin ayın sonunda ləğv ediləcəyini vəd verib.

## Əli Həsənov: "Korrupsiya ilə mübarizə davamlı olacaq"

*"Ölkədə korrupsiyaya qarşı mübarizə kampaniya xarakterli deyil, bu, davamlı olacaq və məntiqi sonluğuna çatdırılacaq".* ANS PRESS-in məlumatına görə, bunu Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib. O, bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına lazımi tapşırıqlar verildiyini və prosesin nəzarətdə olduğunu deyir. Əli Həsənov qeyd edib ki, Prezident Administrasiyası, müvafiq komissiya və qurumlar bu işi sona çatdıracaqlar.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Milyardların yoxa çıxdığı Hindistan**



**«The Washington Post»da Dubay mülkləri yada salındı**



**«Niyə Yaxın Şərqdə geriyə dönüş yoxdur?»**



**İran rejiminin də sonu çatıbmı?**

# İqtisadçılar korrupsiya ilə mübarizəni «görüntü» sayırlar

**«Korrupsiyaya qarşı başlanan kampaniya səmimi deyil». AzadlıqRadiosunun «İşdən sonra» proqramında hökumətin antikorrupsiya addımlarını şərh edən iqtisadçı Rövşən Ağayev belə düşünür:**

*«Azərbaycanda indiyə qədər - son prezident dəyişikliyindən sonra 2 dəfə korrupsiya ilə bağlı proqram qəbul olunub. Bu sənədlərin hər birində korrupsiya ilə sistemli mübarizə üçün kifayət qədər hüquqi əsaslar olub. Müəyyən mexanizmlər təklif olunub. Azərbaycanın adı beynəlxalq korrupsiya reytinqlərində həmişə biabırçı nöqtələrdə qərarlaşıb. Nədən bu heç zaman hakimiyyəti, hökuməti, indi korrupsiya əleyhinə mübarizə kampaniyası başlayan o rəsmiləri narahat etməyib?».*

Ekspert hesab edir ki, hökumətin bu addımları Yaxın Şərqdə baş verən inqilablarla bağlıdır.

İqtisadçı Natiq Cəfərli isə bildirir ki, bu, ictimaiyyəti aldatmaq məqsədi daşıyır. O, bütün bunları şou adlandırır: *«Ümumiyyətlə, korrupsiyaya qarşı mübarizə getmir. Gərək, ictimaiyyət özünü aldatmasın. Çünki korrupsiyaya qarşı mübarizə sistemli və struktur dəyişikliklərindən*


Natiq Cəfərli


Rövşən Ağayev

*sonra başlayır. Əvvəlcə müəyyən struktur islahatları gedəydi, ondan sonra korrupsiyanın ləğv olunması və yaxud da azaldılması uğrunda kampaniyadan danışmaq olardı».*

**ALİ RANQLI ŞƏXSLƏRDƏN BAŞLAMIRSA...**

Natiq Cəfərlinin fikrincə, bu kampaniyada müsbət və yaddaqalan cəhət o oldu ki, hökumət bu problemlərin olmasını etiraf etdi. Ekspertlər hesab edirlər ki, hansı qanun ki, insanlara əziyyət verir, onlar korrupsiyaya yol açır. İnsanların rahatlığı və korrupsiyanın azalması üçün bu qanunlara düzəlişlər edilməlidir. Bundan başqa, qanuna uyğun olaraq dövlət məmurlarının hamısı deklarasiya verməlidirlər.

İşdən çıxarılmalara da toxunan ekspertlər bunu kampaniyaya uyğun bir görüntü hesab edirlər. Rövşən Ağayev deyir ki, bunlar korrupsiya şəbəkəsini yaradan şəxslər deyil: *«İşdən çıxarılanlar korrupsiya piramidasının başında oturan və korrupsiya şəbəkəsini yaradan şəxslər deyil. Sinqapurun keçmiş lideri də deyirdi ki, korrupsiya ilə mübarizə onu yaradan şəxslərdən, ali ranqlı şəxslərdən başlamırsa, deməli, bu, görüntüdür...».*

# Azad Rəhimov qalmaqallı stadionun qiymətini açıqladı

**Bakının Böyük Şor adlanan hissəsində tikiləcək stadionun tutumu 65 min nəfərlik olacaq.**

Bunu jurnalistlərə açıqlamasında Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov bildirib. «Böyük Şor deyilən ərazidə 65 min nəfərlik stadion tikiləcək. İlk layihə Parisin «Stad de Frans» stadionuna oxşar bir layihə idi. Layihə 300 milyon manat (375 milyon dollar – F.D.) dəyərində idi. Ancaq ən son layihə ondan ucuz olmalıdır. Yenə də biz istərdik ki, onun tutumu 60-65 min nəfərdən az olmasın», – deyə nazir əlavə edib.

A.Rəhimov həmçinin bildirib ki, stadionda lift sisteminin tətbiq olunması və pnevmatik oturacaqların yerləşdirilməsi təklif olunub: *«Belə olarsa, lazım olduqda stadionda qaçış zolağı açılacaq, futbolu izləmək istəyən tamaşaçıların sayı çox olduqda isə, qaçış zolağı hissəsinə oturacaqlar yerləşdirmək mümkün olacaq».*

***Qafqazinfo***

# Ev telefonlarına 450 dəqiqəlik limit qoyulacaq

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ev telefonlarına yeni ödəniş qaydalarının tətbiqi üçün mart ayında Tarif Şurasına müraciət edəcək. Bunu Rabitə və İnformasiya Texnologiyaları nazirinin müavini İltimas Məmmədov ANS-ə açıqlamasında bildirib.**

İ. Məmmədov deyib ki, istənilən halda təkliflərdə əhalinin maddi vəziyyəti nəzərə alınacaq və yeni ödəniş qaydaları əhali üçün sərfəli olacaq. Üstəlik, stasionar şəbəkələr həddən artıq yüklənməyəcək. Nazir müavini bildirib ki, Tarif Şurasına müraciət zamanı əhalinin bütün təbəqələrinin maraqları mütləq nəzərə alınacaq: *«Müəyyən xidmətlər ödənişsiz, yəni limitə daxil olmayacaq. Misal üçün, telefon bağlı olsa belə, təcili tibbi yardım, fövqəladə hallar və digər qəza xidmətlərinə zəng etmək mümkün olacaq».*

Təkliflər qəbul olunsa, ay ərzində abonentlərə 450 dəqiqə pulsuz danışmağa icazə veriləcək. Limitdən artıq danışığın hər bir dəqiqəsi üçün, mobil telefonlarda olduğu kimi, müəyyən məbləğdə vəsait ödəniləcək. Tarif paketində əvvəlki tarif sisteminin də ləğv edilməyəcəyi bildirilir. Başqa sözlə, abunəçilərə bir neçə paket təklif olunacaq.

# Aslan İsmayılov korrupsiyaya resept yazdı


Aslan İsmayılov

*«Rüşvətxorluqla mübarizə haqqında kampaniyanı görəndə məni ürəkbulanma tutur».* Bu sözləri AzadlıqRadiosunun «Can Bakı» proqramının **«Bakı sakini korrupsiyaya qarşı mübarizədə nə təklif edir?»** mövzusunda açdığı müzakirəyə qatılan tanınmış vəkil Aslan İsmayılov dedi. Onun korrupsiyaya verdiyi maraqlı resepti bilmək üçün verilişi AzadlıqRadiosu.az saytından dinləyə bilərsiniz.

# Azərbaycanda terror təhlükəsi varmı?


Rasim Musabəyov

**«Terror xəbərdarlıqları yəqin əsaslı məlumatlara söykənir». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında xarici səfirliklərin Azərbaycanda terror təhlükəsi barədə xəbərdarlıqlarına münasibət bildirən Rasim Musabəyov deyib.**

*Rasim Musabəyov deyir ki, Azərbaycanın şimalında və cənubunda bu baxımdan vəziyyət ürəkaçan deyil:* «Hesab edirəm ki, ABŞ və İsrail çox peşəkar və bütün dünyanı əhatə edən şəbəkəyə malikdirlər. Yəni kəşfiyyat şəbəkəsi, elektron vasitələr, peyklərlə, cürbəcür imkanlarla bu fəaliyyəti izləyirlər. Bir təhlükə siqnalı veriblər. Bu cür siqnallara kifayət qədər ciddi yanaşmaq lazımdır».

*Politoloq İlqar Məmmədov* isə deyib ki, bu xəbərdarlıq Azərbaycan vətəndaşlarına da aiddir.

*Politoloq sual edir ki, nədən Amerika və İsrail öz vətəndaşlarına xəbərdarlıq edir, Azərbaycan isə yox. İlqar Məmmədovun fikrincə, bu, onların vətəndaşlarına qarşı qeyri-ciddi münasibətindən xəbər verir:* «Bir hökumət iki dəfə xəbərdarlıq edir, deyir ki, vəziyyət ağırdır. Bizimkilərsə deyir ki, hər şey yaxşıdır, Azərbaycanda sabitlikdir, gözəldir. Elə gözəldir deyə-deyə Mübarək inqilab etdi öz ölkəsində».

**«POLİS VƏTƏNDAŞI QORUMUR, REJİMİ VƏTƏNDAŞLARDAN QORUYUR»**

*Hüquq-mühafizə orqanları, xüsusən də polisin fəaliyyətinə də toxunan İlqar Məmmədov deyir ki, Azərbaycan kimi ölkələrdə polisin vəzifəsi tamam başqadır:* «Azərbaycan polis dövlətidir. Polis rejimidir. Bu isə o deməkdir ki, polisin bir funksiyası var: siyasi rejimi qorumaq».

*Rasim Musabəyov isə opponentinin dedikləri ilə razılaşmır:* «Antiterror baxımından Azərbaycan xüsusi xidmət orqanlarının fəaliyyəti heç də mənfi qiymətləndirilməməlidir. Ən azı Azərbaycanın müttəfiqləri - ABŞ, Türkiyə bu baxımdan Azərbaycanın fəaliyyətini qənaətbəxş hesab edir...»

*İlqar Məmmədov isə düşünür ki, son vaxtlar mühüm struktur obyektlərində qəzaların baş verməsi ortaya suallar qoyur:* «Terror təhlükəsi elan olunandan sonra rabitə, dəmiryolu, su nəqliyyatı və yerüstü nəqliyyat – körpüdə hadisələr baş verib. Mən bundan sonra Azərbaycan hökumətinə necə inanım?».

Rasim Musabəyov isə deyir ki, bu


İlqar Məmmədov

hadisələrin həmin xəbərdarlıqla heç bir aidiyyəti yoxdur. Çünki həmin xəbərdarlıqlarda Qərblə assosiasiya olunan obyektlər nəzərdə tutulur.

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Mümkün inqilab ölkələrinin siyahısında Azərbaycanın da adı var

**ABŞ-da çap olunan "Foreign Policy" jurnalı hesab edir ki, ərəb ölkələrində baş verən inqilabın Azərbaycan, Belarus və Orta Asiya ölkələrində də baş verməsi ehtimalı yüksəkdir. Jurnal fikrini bununla əsaslandırır ki, həmin ölkələrdə də sülalələr və avtokratik liderlər müxalifət partiyalarını, demokratik institutları iflic edib, xalqı seçim və hakimiyyəti dəyişmək hüququndan məhrum edib.**

Müəllif Fiona Hill ərəb inqilablarının Rusiya və Çinə mümkün təsirindən bəhs edərək yazır: *"Son vaxtlar nəzərlər Yaxın Şərqə yönəlib. Tunis və Misir prezidentlərini istefaya məcbur edən inqilab dalğasının ərəb xalqlarının oyanmasına necə təsir edəcəyi, bu hadisələrin İsrail və İran üçün nəticələrinin nə olacağı maraqla izlənir. Xalq hərəkatları nəticəsində devriləcək ərəb liderləri siyahısında Əlcəzair, İordaniya, Suriya, Yəmən və Fələstin Muxtariyyətinin rəhbərlərinin adları çəkilir. Ancaq bu dövlətlərin heç birinin Moskva və Pekin üçün daimi əhəmiyyəti yoxdur. Buna baxmayaraq, ərəb dünyası və Yaxın Şərq xaricində ailə hakimiyyətlərini möhkəmləndirən, müxalifət partiyalarını, demokratik institutları iflic edən, xalqı seçim və hakimiyyəti dəyişmə hüququndan məhrum edən rejimlər çoxdur. Belə ölkələrin əksəriyyəti Rusiya və Çinin qonşuluğunda yerləşir.*

*Onların arasında Azərbaycan və Belarus, Orta Asiya ölkələrindən Qazaxıstan, Tacikistan, Türkmənstan, Özbəkistan və Uzaq Şərqdə Şimali Koreya var. Rusiyanın isə narahat olmağa əsasları daha çoxdur. 2003-2005-ci illərdə Rusiya ilə həmsərhəd ölkələrdə "rəngli inqilablar" olanda regionda siyasi kataklizmlər yaşandı".*

Gürcüstanda, Ukraynada baş verən inqilablardan bəhs edən müəllif 2003-cü ildə Azərbaycanda hakimiyyətin atadan oğula – Heydər Əliyevdən İlham Əliyevə




ötürülməsini və həmin vaxt müxalifətin kütləvi etirazlar aksiyaları keçirdiyini bildirir.

Azərbaycan rəsmiləri ərəb ölkələrində baş verən inqilabların Azərbaycana heç bir təsiri olmayacağını deyirlər. Hakim YAP-nın rəhbərliyi bu mövzuda çıxışlarında adətən bildirir ki, Misirdən fərqli olaraq Azərbaycanda inqilab üçün heç bir əsas yoxdur. Ölkə iqtisadiyyatı və əhalinin sosial vəziyyəti Misirdən dəfələrlə yaxşıdır, prezidentin isə xalq arasında olduqca böyük dəstəyi var.

***Turxan Kərimov***

# Как Азербайджан пользуется услугами лоббистов?

**Как явствует из федеральных документов США, у Азербайджана на настоящее время заключен контракт с лоббистской компанией Patton Boggs, которая обходится стране по 35 тысяч долларов в месяц.**

Лоббисты имеют особое значение для амбициозных развивающихся стран, обычно располагающих не слишком опытными дипломатическими кадрами, говорит старший научный сотрудник неправительственной организации Sunlight Foundation Билл Эллисон. Этим странам нужно выстраивать отношения с Конгрессом, Госдепартаментом и Минобороны, и, возможно, им имеет полный смысл заплатить влиятельным американцам, чтобы те провели для них всю организационную работу, подчеркивает он.

Этим странам также бывают весьма полезны вашингтонские шишки, которые обычно возглавляют лоббистские фирмы и которые могут оказаться гораздо влиятельнее, нежели представители их родной страны, добавляет он.

Хотя у Армении в настоящее время и нет своих лоббистов в Вашингтоне, в Америке имеется ряд влиятельных армяно-американских организаций, отстаивающих интересы Еревана. Частично по этой причине Азербайджан весьма активно пользуется услугами лоббистских фирм, обосновавшихся на Кей-стрит, говорит замдиректора Института европейских, российских и евразийских исследований в Вашингтоне Кори Уэлт. У Азербайджана имеется «неприятель с отлаженными взаимоотношениями на Капитолийском холме», – говорит он.

Как явствует из подлежащих обнародованию документов Министерства юстиции США о деятельности лоббистских компаний, Азербайджан сократил расходы на эти цели. В 2008 и 2009 годах Азербайджан заплатил различным фирмам в общей сложности 1,3 миллиона долларов.




Посольство Азербайджана не ответило на просьбы о комментарии. Ни

Расходы Азербайджана на лоббистскую деятельность в США в 1997-2007 годах

одна из лоббистских компаний, к которым обращались корреспонденты EurasiaNet, не пожелали дать официальных комментариев.

Проведя большую часть 2009 и 2010 годов без лоббистов, Азербайджан подписал в декабре 2010 года контракт с компанией Patton Boggs. Договор, представленный в Министерство юстиции, не содержит конкретики относительно того, какие именно вопросы представляют для Баку особый интерес. В нем лишь говорится, что в задачи компании будет «входить оказание консультационных услуг и содействия в сфере двусторонних американо-азербайджанских отношений».

В прежних же соглашениях такого года Азербайджан особенно интересовал его имидж в Соединенных Штатах. В 2007 году лоббисты компании Livingston Group 91 раз контактировали с сотрудниками Конгресса США по вопросам резолюции, призывающей Азербайджан «немедленно освободить» Фархада Алиева и Рафика Алиева, оказавшихся на скамье подсудимых по обвинению в подготовке государственного переворота, дело которых привлекло внимание международных правозащитных организаций. Резолюция так и не получила дальнейшего хода.

В начале 2009 года работавшие на Азербайджан лоббисты также пытались добиться того, чтобы конгрессмены увековечили память Ходжалинской трагедии, произошедшей в 1992 году в ходе нагорно-карабахского конфликта. Эти попытки не принесли особого эффекта: во всяком случае, как минимум один конгрессмен, республиканец Эд Уитфилд от штата Кентукки, официально отметил годовщину Ходжалинских событий с занесением соответствующей записи в Протокол Конгресса через три дня после состоявшейся у него встречи по этому вопросу с лоббистом из компании Livingston Group.

***Джошуа Кучера ("EurasiaNet")***

# Аяз Муталибов: "Азербайджан идет по пути демократии"

**Экс-президент Азербайджана Аяз Муталибов, проживающий в Москве, заявил в интервью агентству SalamNews, что ждет разрешения властей республики, на то чтобы вернуться на родину. "Когда президент Азербайджана разрешит мне вернуться, я немедленно вернусь".**

Муталибов также заявил, что позиции правительства в Азербайджане сильны, внешняя политика - сбалансирована, а республика "идет по пути демократии". Он высказал мнение, что "последние события в арабских странах" на Азербайджане не отразятся.

Аяз Муталибов был первым президентом Азербайджана после распада СССР в 1991 году. В 1992 году, после неудачной для себя попытки вернуться во власть, он был свергнут и перебрался в Россию. В Азербайджане экс-президент обвинен в организации госпереворота. Азербайджан попросил у России его выдачи, однако получил отказ. Аяз Муталлибов является одним из лидеров Социал-демократической партии Азербайджана.



Аяз Муталибов

# "Пьющий" Азербайджан




**В Азербайджане уровень потребления алкоголя составляет 10,6 литра на человека в год, возрастом старше 15 лет, отмечается в опубликованном в пятницу докладе Всемирной организации здравоохранения. По этому показателю он на 38 месте среди 188 стран, по которым со стороны ВОЗ приведены данные. Судя по данным исследования, 87% употребляющего алкогольные напитки населения Азербайджана предпочитают пиво (в среднем 7 литров на человека в год), 12% - вино (в среднем 30 грамм на человека в год),**

1% – водку и остальные алкогольные напитки (в среднем 1 литр на человека в год).

В Армении, которая на 31 месте в списке, уровень потребления алкоголя равен 11,35 литра на человека в год, а в Грузии – 6,4 литра (87 место). Азербайджан можно назвать «одной из самых пьющих стран мира с преимущественно мусульманским населением». Его «на 360 грамм» опережает только Казахстан с показателем 10.96 литра на человека в год. Хотя, согласно официальной статистике, в Казахстане мусульмане составляют лишь 47% населения, а в Азербайджане - 93%.

«Самой пьющей страной мира» по рейтингу ВОЗ оказалась Молдова, жители которой выпивают в среднем 18,22 литра алкогольной продукции в год на одного человека. Это в три раза больше чем средний глобальный показатель - 6,1 литра алкоголя, которые человек употребляет ежегодно. Пятерку "самых пьющих" составляют также Чехия с показателем 16,45 литра алкоголя на человека в год, Венгрия - 16,27 литра, Россия - 15,76 литра и Украина - 15,6 литра. ВОЗ отмечает, что в госбюджетах Молдовы, Израиля, Хорватии и Украины заложена специальная статья по лечению от алкоголизма. Чрезмерное потребление алкоголя является причиной 4% всех смертей в мире.

# Карабахский конфликт и Грузия

**Парламент Грузии приступил к обсуждению новой концепции национальной безопасности. Свою точку зрения по данному вопросу на сайте Грузия-Онлайн изложил экс-мэр Батуми, аналитик Гела Васадзе. Он пишет, что панарабские революции наложат отпечаток на внешнеполитический вектор крупных соседей Грузии, а именно Турции и Ирана.**

Уровень отношений с Турцией остается удовлетворительным, однако, надо быть готовыми к возможной конфронтации Турции с Западом, ибо сегодня уже понятно, что американский план включения Турции в Европу провалился, считает Васадзе. По мнению аналитика, основной внешней угрозой национальной безопасности Грузии является возможность возобновления армяно-азербайджанской войны. Он пишет: «Практически все аналитики сходятся во мнении, что вероятность начала боевых действий в течение ближайших трех лет крайне велика.

На мой взгляд, короткой, победоносной войны ни с чьей стороны не будет. А будет затяжной, кровопролитный конфликт, который неизбежно дестабилизирует ситуацию во всем регионе. Под угрозой срыва окажутся все региональные проекты восток-запад, в частности строительство железной дороги Баку-Эрзерум, автобана Поти-Баку и Батуми-Баку, автобана Батуми- Ереван (с выходом на Иран), и, конечно, газопровод «Набукко». Более того, функционирование нефтепровода Баку-Джейхан также может оказаться под угрозой. Это потенциальные убытки на сотни миллионов долларов.

Так или иначе, военные поставки понадобятся обеим странам. Конечно, в гораздо меньшей степени Азербайджану, который практически создал свой собственный военно-промышленный комплекс, и уже сегодня способен обеспечить себя всем необходимым, вплоть до боеприпасов, и критически необходимы Армении.

Пикантность ситуации заключается в том, что в случае войны наиболее вероятный поставщик военных грузов в Армению – Россия. Понятно, что пропускать российские военные грузы через территорию своей страны - шаг губительный, прежде всего с внутриполитической точки зрения. Однако, в случае угрозы новой агрессии России властям Грузии придется выбирать между полной потерей лица как на международной, так и на внутренней арене, и нового конфликта с Россией,



армия которой стоит в 40 километрах от Тбилиси, в регионе буквально нашпигованном оружием.

Что в данном случае могут предпринять наши власти. Ареал возможных действий, на самом деле, ничтожно мал. Конечно, прежде всего, попытаться убедить стороны в двух простых вопросах. Первый – война губительна для всего региона, второй - в случае отсутствия прогресса в решении карабахского вопроса, война неизбежна.

Следующий шаг убедить наших западных партнеров предоставить дополнительные гарантии Грузии, в случае рецидива военной агрессии России. И, наконец, заранее начать готовится к такой агрессии с учетом опыта августовской войны.

Из всех стран мира Грузия объективно больше всех заинтересована в нормализации армяно-азербайджанских отношений.»

# "Dəyişiklik arzulayan xalqlara imkan verilməlidir"



Barak Obama

**Fevralın 15-də ABŞ prezidenti Barak Obama keçirdiyi mətbuat konfransında deyib ki, hakimiyyətlər dəyişiklik arzulayan xalqlara imkan verilməlidir. O, iqtidarları dəyişiklik arzusunu dilə gətirənlərə qarşı zorakı davranmaqdan çəkinməyə çağırıb. «Diktator dilemması»ndan danışan dövlət katibi Hillari Klinton isə bildirib ki, internet azadlığına maneələr (istər texniki filterlər olsun, istər senzura, istərsə də online fikir və azad toplaşmaq azadlıqlarını gerçəkləşdirənlərə hücumlar) yaradan hakimiyyətlər sonda özlərini dalana dirəyəcəklər. Hillari Klintonun fikrincə, bu hakimiyyətlər «diktator dilemması» ilə üzləşəcəklər. O deyir: "ya sədlərin uçurulmasına imkan verməlisən, ya da həmin sədləri saxlamağın altını çəkməlisən».**

**«BEYNƏLXALQ İCTİMAİYYƏT ÖZ MÖVQEYİNİ GÖSTƏRƏCƏK»**

*Müsavat başqanı İsa Qəmbər deyir ki, ABŞ-dan gələn mesajların arxasında ona da işarə vurulur ki, dəyişiklik istəyən xalqa qarşı zorakı davranış göstərən hakimyyət Amerikanın dəstəyini görməyəcək:*

- Dəyişikliyin yiyəsi xalq olmalıdır. Toqquşmalar olmaması, avtoritar rejimlərin xalqa qarşı qəddarlığa yol verməməsi artıq beynəlxalq birliyin iradəsindən asılı olan bir məsələdir. Əgər Azərbaycan xalqı öz iradəsini ortaya qoyacaqsa, bu prosesin dinc şəkildə davam etməsi üçün beynəlxalq ictimaiyyət öz mövqeyini ortaya qoyacaq.

**«AZƏRBAYCANA BUNUN QƏTİYYƏN DƏXLİ YOXDUR»**

*Amma YAP-dan olan millət vəkili Rəbiyyat Aslanova ABŞ-ın mesajlarını öz maraqlarına, mənafeyinə uyğun yeni dünya qurmaq və insan hüquqları adı altında başqa ölkələrin daxili işinə qarışmaq cəhdi kimi qiymətləndirir. Rəbiyyət Aslanova deyir ki, Azərbaycan demokratik ölkə kimi söz və siyasi azadlıqlara öz Konstitusiyasında yer ayırıb. Ölkə vətəndaşı da bu hüquqlarından istifadə edir:*

- Bunun üçün Obamanın, başqa bir dövlətin, super dövlət olsa belə, başçısının mənə göstəriş verməsinə heç ehtiyac yoxdur. Şərq ölkələri üçün deyilibsə, totalitar rejimlər üçün deyilibsə, onlar da nəticə çıxarsınlar. Azərbaycana bunun qətiyyən dəxli yoxdur".

Xarici qurumlara təzim psixolojiyasından qurtulmağın vacibliyindən danışan Rəbiyyət Aslanova deyir ki, ölkə haqqında mənfi imic yaratmaq istəyən təşkilatlar qərəzli və qeyri-obyektivdirlər. O, hətta ATƏT-in müşahidə missiyasının son parlament seçkisi ilə bağlı hesabatını da (hesabatda ölkədə keçirilən seçkinin demokratik ənənələrdən uzaq olduğu bildirilir-SA) tənqid edir ki, bu cür beynəlxalq təşkilatlar öz mövqeləri ilə siyasi səhnədə nüfuzlarını itirirlər.



Rəbiyyət Aslanova

**«BU SİYASƏT DAVAMLI OLARSA...»**

ReAL hərəkatının həmtəsisçisi Erkin Qədirli isə deyir ki, Azərbaycanda insan hüquqları və iqtisadi baxımdan vəziyyət ürəkaçan deyil. Amma ABŞ-ın maraqlarına uyğun strateji siyasətə, sabitliyə sahibdir. Onun fikrincə, əgər ABŞ-ın xarici siyasətində bu xətt davamlı olacaqsa, Azərbaycan hakimiyyəti də sərt mövqe ilə üzləşə bilər. Amma Erkin Qədirli hələlik bunun əlamətlərini görmür.

***Səadət Akifqızı***



# İlham Əliyev sosial şəbəkələrə də vaxt tapır

**Prezidentin «Twitter»də nə yazdığı ilə maraqlananda məlum oldu ki, İlham Əliyevin adına iki müxtəlif «Twitter» səhifələri var: @azprezident və @prezidentaz. Birində ingilis dilində, digərində isə Azərbaycan dilində qısa mesajlar dərc olunub.**

**PREZİDENT NƏ YAZIR**

*İngilis dilli «Twitter» hesabında (@presidentaz) İlham Əliyev yazır:*

We must eliminate these shortcomings and evils as soon as possible. There should be a unity of all our citizens (*Biz bu nöqsan və yaraları mümkün qədər tezliklə aradan qaldırmalıyıq. Bu məsələdə bizim bütün vətəndaşlar bir olmalıdırlar*).

We must fight against bribery and corruption even more rigorously (*Biz rüşvətxorluq və korrupsiyaya qarşı daha ciddi mübarizə aparmalıyıq*).

Azərbaycan dilli «Twitter» hesabında (@azpresident) isə sonuncu yazılar belədir:

Ancaq ədalət bizim tərəfimizdədir. Xocalida 600-dən çox dinc əhali ermənilər tərəfindən qətlə yetirildi, onların 100-dən çoxu uşaq idi.

Hələ ki, dünyada ikili standartlar siyasəti mövcuddur.

Daha sonra burada da Azərbaycan prezidentinin korrupsiyaya qarşı birgə mübarizə çağırışları, rüşvətxorluq halları barədə ona xəbər verilməsi xahişi yerləşdirlib.

@azpresident hesabından prezident İlham Əliyevin 1.069 izləyicisi var. Prezident bu günə kimi 251 «twitt» yazıb.

Mikrobloqların həqiqiliyini yoxlamaq üçün prezidentin mətbuat xidmətinə müraciət etdik. Təəssüf ki, prezidentin mətbuat xidmətindən bu suallara cavab almaq cəhdlərimiz nəticəsiz qaldı.

***Turxan Kərimov, Səadət Akifqızı***

# Naxçıvan sakini nazirin ona işgəncə verdiyini deyir


Nadir Məmmədov

**«BAŞLADI BARMAQLARIMI KƏLBƏTİNLƏ SIXMAĞA»**

*«Məni nazirin yanına qaldırdılar. İçəri girən kimi soruşdu ki, kimin oğlusan? Sonra məni söyməyə, təhqir etməyə başladı. Mənə dedi ki, hansı əlinlə mətbuata müraciət yazmısan, həmin əlini mənə uzat. Mən də uzatdım. Başladı barmaqlarımı kəlbətinlə sıxmağa. Sədəflərim qapqara qaraldı. Dedi ki, dərini soyaram».*

Naxçıvanda müxtəlif bəhanələrlə dəfələrlə yol polisi tərəfindən cərimələnən, daha sonra Daxili İşlər nazirinin qəzəbinə tuş gəldiyini iddia edən Nadir Məmmədov iki gündür MR-dən Bakıya gəlib. Dediyinə görə, fevralın 15-də axşam saatlarında zorla nazir Əhməd Əhmədovun yanına aparılaraq nazirin otağındaca işgəncəyə məruz qalıb. O bunu polis özbaşınalığı ilə bağlı mətbuata etdiyi müraciətlə bağlayır: *«Əhməd Əhmədov mənə dedi ki, «Naxçıvandan çıx get. Naxçıvan sənə yaraşmır. Niyə mətbuata vermisən? Niyə Azərbaycan, Bakı bunu bilməlidir? Get, müraciət etdiyin müxbirlərə şillə vur, müraciəti də geri götür. Nazir Naxçıvanın sirrinin kənara çıxmasına görə narahat olmuşdu».*

Nadir Məmmədov ötən il noyabrın 7-də Azərbaycanda keçirilən parlament seçkilərində 4 saylı Naxçıvan şəhər dairəsindən "Qarabağ" blokunun namizədi Faiq Əliyevin müşahidəçisi olub. Naxçıvan sakini özünə qarşı təzyiqləri də müşahidəçi olduğu məntəqədə saxtakarlığa qarşı radikal mövqe tutması ilə əlaqələndirir.

**«YƏQİN HANSISA GÜNAHI OLUB»**

«Qarabağ» blokunun namizədi Faiq Əliyev də hesab edir ki, Nadir Məmmədova qarşı təzyiqlər seçkilərlə bağlıdır. Bu təzyiqlərin seçkidən dərhal sonra başladığını deyir: *«Məntəqədə bir az aktiv iştirak etmişdi. Saxtakarlığa imkan verməmişdi. Məntəqədən dəfələrlə çıxarmaq istəmişdilər, biz də müdaxilə etmişdik. O zamandan hədələnmişdi Nadir».*

Faiq Əliyevlə eyni dairədən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş və deputat seçilmiş Eldar İbrahimov isə Nadir Məmmədovun müşahidəçi olduğuna görə deyil, «yəqin hansısa başqa günahı var deyə, təzyiqlə qarşılaşdığını» deyib.

**NAZİRİN AZADLIQRADİOSUNA QISA CAVABI**

Naxçıvan DİN-in ən yüksək vəzifəli şəxsi barədə hallanan ittihamlara cavab öyrənmək üçün MR ilə əlaqə saxladıq. Nazir Əhməd Əhmədov telefonumuzu açsa da, məsələdən xəbər tutan kimi cavabı qısa oldu.

**- Əhməd müəllim, sizi AzadlıqRadiosundan narahat edirlər".**

- Səhv edirlər.

Muxtar Respublika DİN-in İsmayıl adlı rəsmisi də sualımızı cavabsız qoydu:

**«SÖHBƏTİ BAĞLAYIN, XANIM!»**

*«Onu sizə kim məlumat verib, mən indi- bu dəqiqə onu taparam. Məni narahat etməyin, işdəyəm. Söhbəti bağlayın, xanım!».*


Əhməd Əhmədov

Naxçıvandan xəbər ala bilməyincə Azərbaycan DİN-ə müraciət etməli olduq. Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə naxçıvanlı həmkarlarından fərqli olaraq sualımıza şərh verdi və Əhməd Əhmədovun ünvanına səslənən ittihamları «cəfəngiyyat» adlandırdı: *«Son günlər Naxçıvan MR-in DİN-ə nə bu adda adam dəvət olunub, nə belə bir adam cənab nazirin qəbulunda olub. Ona görə belə xarakterli məlumatları yaymaq açıq qərəzdir və DİN orqanlarının əhali arasındakı yüksək imicinə, nüfuzuna xələl yetirməyə hesablanmış məlum bir kampaniyadır».*

Nadir Məmmədov isə artıq evinə, ailəsinin yanına qayıtmağa qorxur və təhlükəsizliyi təmin edilməyincə Naxçıvana qayıtmayacağını deyir.

***Yafəz Əkrəmoğlu,***
***Sevinc Hüseynzadə***

# Elçin Həsənov: «Məni döyən polislər cəzalandırılsın!»


Elçin Həsənov

**Jurnalist Elçin Həsənov deyir ki, fevralın 16-da Sumqayıt Apelyasiya Məhkəməsi qarşısında polislər onu döyüb. Bu zaman ağrıdan hətta ürəyi gedib. O, «Yüksəliş naminə» qəzetinin əməkdaşı kimi AXCP fəalı Cabbar Savalanın məhkəməsini izlədiyini bildirir:**

*«Məhkəmədən sonra 20 nəfərdən çox mülki geyimli və polis formasında olan şəxs məni vəhşicəsinə döydü. Məni maşına mindirərkən aldığım xəsarətlərdən ürəyim gedib bayılmışam. Həyatıma təhlükə olmasına baxmayaraq, polislər məni 100 metrə qədər sürüyərək bayılmış vəziyyətdə polis avtomobilinə mindirdilər».*

Elçin Həsənov deyir ki, iki gündür bədənində ağrı və sancı var. Jurnalist hadisə vaxtı gödəkçəsinin cırıldığını, papağı, telefonu və 20 manat pulunun polis bölməsində yoxa çıxdığını da söyləyir. Jurnalist onu döyənlərin cəzalandırılmasını tələb edir. Onu döyən polislərin video və foto görüntülərini götürdüyünü bildirir.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə isə Elçin Həsənovun döyülmədiyini, polislərin onunla nəzakətlə davrandığını bildirir: *«Elçin Həsənov dərhal polis bölməsindəkilərə məlumat verə bilərdi. Hadisədən bir gün keçəndən sonra bu haqda danışmaq nə qədər düzdür?»*

AXCP Gənclər Təşkilatının sədri Əbülfəz Qurbanlı isə elə fevralın 16-da AzadlıqRadiosuna Elçin Həsənovun döyüldüyünü və vəziyyətinin pis olduğunu bildirmişdi.

***Şahnaz Bəylərqızı***

# Yol hərəkətində cərimələrin sayı artmayacaq ki?...




**Prezident İlham Əliyev fevralın 14-də yol polisi əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və onların vəzifələrinin icrasına nəzarəti artırmaqla bağlı sərəncam verib. Həmin sərəncam bundan sonra yol hərəkəti qaydalarının pozulmasına görə ödənilən cərimələrin 25 faizinin yol polisi əməkdaşlarına verilməsini nəzərdə tutur.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Vaqif Əsədov deyir ki, qanunvericiliyə sərəncamdan irəli gələn dəyişikliklər edildikdən və bu yenilik qüvvəyə mindikdən sonra bu barədə ətraflı danışmaq olar. Amma dövlətin atdığı bütün bu addımlar vətəndaşların və bütövlükdə cəmiyyətin rifahı üçündür.

Prezident həmin sərəncamında Nazirlər Kabinetinə törədilmiş inzibati xətalara görə cərimələrin yalnız bank və ya plastik kart vasitəsilə ödənilməsini təmin etməyi tapşırır. Yəni bununla bağlı qanunvericiliyə dəyişikliklərin edilməsi barədə hökumətdən təkliflər istənilir. Bakıda söhbətləşdiyimiz sürücülərin bu məsələyə münasibəti isə birmənalı deyil. Prezidentin sərəncamına ümidlə yanaşanlar da var, yol polisinin bu yenilikdən də sui-istifadə edəcəyini düşünüb bədgüman olanlar da.

Məsələn, taksi sürücüsü Fikrət kişi deyir ki, prezident bu fərmanla yol polisini yerində oturtmaq istəyir: *«Prezident avtomobil cərimələrindən 25 faiz alıb yol polisinə verməklə deyir ki, alın maaşınızı, oturun yerinizdə. Camaatla işiniz olmasın. Məncə, bunun nəsə xeyiri olmalıdır...*

*- Xeyiri dövlətə və yol polisinə olacaq. Ziyanı isə biz sürücülərə. Əgər qayda-qanunla olsa, yaxşıdır. Bir də var ki, heç nədən cərimə edəcəklər, özlərinə xeyirdi də. Çanaq yenə də bizim başımızda sınır də...*

*- Az qazanırlar, hələ bir 25 faiz də üstünə getsin. Dolu dəryaya yağar də. Hamısı biz kasıbların belindən çıxır. O gün heç nədən yazıb mənə cəriməni. 3 bal, özü də 40 manat. İndi mən onu necə qazanıb aparım verim... »*

Hüquqşünas Bəhruz Kərimov isə hesab edir ki, prezidentin bu sərəncamının mənfi göstəriciləri daha çox olacaq. Belə ki, əslində cərimələrdən əldə edilən vəsaitin 25 faizinin cərimə edənlərə verilməsi yol polisi – sürücü münasibətlərində özünü neqativ hal kimi büruzə verəcək: *«Cərimələrin, inzibati xətaların sayı bundan sonra artacağ».*

Ekspertin fikirincə, əgər məqsəd yol polisinin öz vəzifəsini layiqincə yerinə yetirməsi və yaxşı əməkhaqqı almasıdırsa, məntiqlə onun maaşı artırılmalıdır. Onsuz da bütün cərimələr dövlət büdcəsinə ödənilir. Bəhruz Kərimov deyir ki, büdcədən ayırmaqla polisin maaşını artırmaq daha düzgün olar. Bu halda polislər də heç nədən inzibati xəta uydurmağa meyilli olmazlar.

***İlqar Rəsul***

# İnternetlə «.az» domeni almaq niyə mümkün deyil?

**Şəkidən 17 yaşlı blogger Fərid Hacıyev godaddy.com saytına daxil olub cəmi 10-15 dəqiqə ərzində boş olan istənilən domeni əldə edə bilər. Amma Qərb ölkələrindən birində yaşayan Fred nə qədər etsə də, «.az» domenində qeydiyyatdan keçə bilməz. Bunun üçün əvvəlcə Bakıda yaşayan bir dost tapmalı, sonra isə... Sonrakı proses elə Azərbaycan vətəndaşları üçün də eynidir.**

### XARİCİ ÖLKƏLƏRDƏ DOMEN ALMAQ TƏCRÜBƏSİ

İnformasiya texnologiyası mütəxəssisi, blogger İlqar Mirzə «.com» domenini misal çəkib deyir ki, bu domeni almaq üçün yüzlərlə ünvan var. Xarici ölkələrdə həm sahib şirkət özü satır, həm də digərlərinə satmaq hüququ verir. Beləliklə, əhalinin bir neçə yerdən domen almaq imkanı olur.

İnternet xidmətlərini təklif edən NT şirkəti özü xidmətlərini internet üzərindən aparmır. Onlayn qeydiyyat sisteminin tətbiq olunmamasını bir çox İT mütəxəssisləri «biabırçı vəziyyət» adlandırır.

### PROBLEM HANSI QURUMDADIR?

*«.az» domenində illik minimum ödəniş 20 manatdır. Domenin milli inzibatçısı Faiq Fərmanov deyir ki, onlar da elektron sistemin olmasında maraqlıdırlar. Kağız-kuğuzdan canlarını ona görə qurtara bilmirlər ki, bizim qanunvericiliyə görə, Vergilər Nazirliyi tərəfindən hər bir domen üçün, hər bir pul qəbul edilməsi üçün müqavilə tələb olunur. Özü də elektron variantda yox, real müqavilə, buna görə də müştəri məcburdur ofisə gəlsin».*

Vergilər Nazirliyi analitik informasiya şöbəsinin nümayəndəsi Şahin Məmmədov isə deyir ki, müqavilənin kağız



üzərindən və ya onlayn təqdim olunmasının heç bir fərqi yoxdur: *«Başqa qanunvericilik aktları ilə bağlı, elektron imza ilə bağlı ola bilər ki, onların hansısa narahatlığı var, amma Vergilər Nazirliyi tərəfindən onlara heç bir qadağa yoxdur.»*

**Reportajın davamını AzadliqRadiosu.az saytında oxuyun.**

***Vüsalə Əlibəyli***

# Müxalifət liderlərinə ölüm hökmü çağırışları



**Bu çağırışlar fevralın 15-də İranda hökumət tərəfdarı olan 200-dən çox millət vəkilinin imzaladığı bəyanatdandır. Onlar bəyanatlarında üç müxalifət lideri – Mirhüseyn Musəvi, Mehdi Kərrubi və Məhəmməd Hatəminin ölkədə başlayan kütləvi etirazlara görə məsuliyyət daşıdıqlarını bildiriblər.**

"İnsanların səbr kasası daşıb və onlar ölüm hökmü tələb edirlər", – deyə bəyanatda vurğulanır. Bazar ertəsi İranın paytaxtı Tehranda və başqa şəhərlərdə - Şirazda, İsfahanda, Məşhəddə minlərlə insan küçələrə çıxaraq Tunis və Misirdə qalib gəlmiş inqilablarla həmrəylik nümayiş etdirməyə çalışıblar. Polis nümayişçiləri dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Onlarla aksiyaçı həbs edilib. Təhlükəsizlik qüvvələri bildirirlər ki, iğtişaşlar zamanı 1 nəfər ölüb, təhlükəsizlik qüvvələrinin 8 üzvü isə xəsarət alıb. Polis iddia edir ki, ölüm hadisəsinə görə, qadağan olunmuş müxalifət qrupu – Mücahidine-Xalq cavabdehdir.

Bunlar axır 1 ildə İranda ən böyük etiraz aksiyalarıdır. Amerikanın dövlət katibi Hillari Klinton isə İran hökumətini dinc nümayişçilərə qarşı zor tətbiq etməməyə çağırıb.

**KLİNTON AMERİKANIN ETİRAZÇILARIN DALINDA DURDUĞUNU DEYİB**

O bildirib ki, İranda insanların Misir xalqının əldə etdiyi haqlar qədər hüquqları var: *"Etirazınızı dinc şəkildə bildirin, effektiv yol budur, Misir də bunu göstərdi. Öz hüquqlarınızı tələb etməkdə davam edin, amma onu da bilin ki, bu, bir prosesdir və həmin prosesdə davamlı iştirak lazımdır".*

Klinton İran hakimiyyətini ikiüzlülükdə də ittiham edib. O deyib ki, Misirdə xalq ayağa qalxanda Tehran bunu alqışlamışdı, indi isə özü küçələrə çıxan insanlara qarşı güc tətbiq edir.

# Tanınmış yazıçı Rusiyanın tezliklə dağılacağını deyir



**"Rusiya – caynaqları korşalmış nəhəng bir tiranozavrdır. O, ayaqlarını sürüyür, zorla hərəkət edir. O, can verən heyvanı xatırladır". Tanınmış rus yazıçısı Vladimir Sorokin bunu İspaniyanın "Efe" xəbər agentliyinə verdiyi müsahibədə deyib. Bu ilin yanvarında "Alfaguara" nəşriyyatı onun "Buz" romanını ispanca çap edib. 55 yaşlı yazıçı deyib ki, 20-ci əsrin əvvəlindən indiyəcən Rusiyanın yaşadıqları "İmperiyanın mərhələli şəkildə süqutu"dur:**

*"Bu süqut prosesi 1917-ci ildə başlandı. Daha sonra huşsuz vəziyyətdə olan Rusiya böyük səylər hesabına bolşevikləri doğurdu. Bolşeviklər də qorxunc metodlarla İmperiyanı özünə gətirdilər, bərpa etdilər".* Sorokinin fikrincə, Sovet İttifaqını yaratmaq - *"Rusiya İmperiyasının meyitini süni şəkildə diriltmək" idi. "Bu, qorxunc bir eksperiment idi. İlk dövrlərdə bu eksperiment böyük qurbanlar, qorxutma və təcridetmə metodları hesabına uğurla həyata keçirilirdi. Amma sonra bu meyit təbii bir prosesin nəticəsi olaraq çürüməyə başladı".*

Sorokin deyir ki, Vladimir Putin və Dmitri Medvedevin liderliyi dövrü "İmperiya meyitinin mövcudluq müddətinin son mərhələsidir. Bundan sonra belə davam edə bilməz. Mən Rusiyaya heç on il də vermirəm".

Sorokinin əsərləri indiyəcən 20-dən çox dilə, o cümlədən Azərbaycan dilinə tərcümə edilib.

***Rövşən Qənbərov***



# Tacikistanda 18 yaşına çatmayanların məscidlərdə namazı yasaqlanır

**Tacikistanda evlərə "Quran" paylayırlar, amma məsciddə namaz qılmaq da yasaqlanır. Xatlon əyalətinin rəhbərliyi elan edib ki, radikal islamın yayılmasıyla mübarizə tədbirlərinə başlayırlar. Ghaybullo Avzalov bildirib ki, ilin sonuna qədər əyalətdəki 400 min ailənin hər birinə tacik dilinə tərcümə edilən "Quran" və ölkənin Konstitusiyasını paylayacaqlar.**

Bundan başqa, evlərə milli adətlərlə bağlı qanun və ona əməl etməyən valideynlərin üzləşəcəyi məsuliyyətlə bağlı qanunların nüsxələri də veriləcək. Hələ ki, sözügedən qanunlar ancaq layihə şəklindədir. Ancaq bu yaxınlarda həmin sənədlərin qanun kimi təsdiq edilməsi nəzərdə tutulur. Bu layihəyə görə, 18 yaşına çatmayan gənclərin məscidlərdə namaz qılması və hicab taxması da yasaqlanacaq. Qanun artıq imzalanmaq üçün prezidentə göndərilib.

Avzalovun sözlərinə görə, bu tədbirlər gənclər arasında radikal islamın yayılmasının qarşısını alacaq. Həm də onların qanunlara əməl edən, milli adət-ənənələri bilən vətəndaş kimi böyüməsini təmin edəcək. İslami İntibah Partiyasının sədr müavini Azimjon Vahhobov deyir ki, əyalət rəhbərliyi yanılır. Çünki bir tərəfdən evlərə "Quran" paylasalar da, digər tərəfdən gəncləri məscidə namaza buraxmamaq və hicab geyinməyi qadağan etməklə, əksinə, radikallığı yayacaqlar.

# Müsavat 100 yaşında böyük dəyişikliklərə ümid edir…



«Təbriz» kinoteatrında tədbir

**«2011 təkcə Müsavat ili yox, həm də Azərbaycanda demokratik inqilab ili olacaq». Bu fikirləri Müsavat Partiyasının 100 illik yubileyi ilə bağlı fevralın 19-da «Təbriz» kinoteatrında keçirilən tədbirdə partiyanın icra katibi Arif Hacılı səsləndirib. Partiyanın Gənclər Təşkilatının sədri Tural Abbaslı da Tunis və Misirdən sonra növbəti demokratikləşmə prosesinin Azərbaycanda gedəcəyinə ümid etdiklərini bildirib.**

Müsavat başqanı İsa Qəmbər də bu il dəyişikliklərin olacağından danışdı.

**«DÜNYADA AVTORİTAR REJİMLƏR QALMAMALIDIR»**

*«Biz Azərbaycanı dəyişəcəyik. Dünyada böyük bir dəyişim dövrü başlayıb. Yeni bir mərhələ başlayıb. Bəşəriyyətin iradəsi budur ki, dünyada avtoritar rejimlər, diktatorlar qalmamalıdır, hamısı getməlidir. Gedəcəklər də, qala bilməyəcəklər. Sadəcə, necə gedəcəklər, o ayrı söhbətin mövzusudur. Onu da yeri gələndə müzakirə edəcəyik».* İsa Qəmbərin bu sözlərindən sonra zalda hakimiyyətin ünvanına «İstefa!» şüarları səsləndi.

Yubiley tədbirində çıxış edən AXCP sədri Əli Kərimli isə yaxın gələcəkdə Azərbaycan xalqını birləşdirəcək daha bir məqamın olacağını bildirib. Onun fikrincə, bu birləşmə Azərbaycana demokratiya və azadlıq gətirəcək. Sabiq millət vəkili Pənah Hüseyn də azadlıq uğrunda mübarizənin elə də uzaqda olmadığını deyib: *«Ya bu, ya da gələn ay Azərbaycana layiq olmayan hakimiyyətə, qaranlığa, istibdada qarşı mübarizəmiz başlayacaqdır və biz qalib gələcəyik».*

***Maarif Çingizoğlu***

# İran azərbaycanlıları "yaşıllar"a mənəvi dəstək verir



**«Biz bütün demokratik hərəkətlərə mənəvi dəstək göstəririk. Ancaq İranda keçirilən mitinqlərdə fiziki olaraq iştirak etmirik». Bunu Ərdəbildə yaşayan azərbaycanlı fəal Abbas Lisani deyir. O bildirir ki, ölkədə baş verənlərə mənəvi dəstək versələr də, İran müxalifətinin mitinqlərində iştirak etməyi lazım bilmirlər.**

**«İRANDA DEMOKRATİK GÜC GÖRMÜRÜK»**

Lisani deyir ki, «Demokratik islahatlar bütün millətlər üçün faydalıdır. Ancaq biz İranda demokratik güc görmürük». Onun fikrincə, demokratiyanın əsas qayəsi olan millətlərin hüququnun təsbit olunması İrandakı «yaşıl hərəkat»ı təmsil edənlərin çıxışlarında görünmür. Abbas Lisani deyir ki, fevralın 14-də müxalifətin etiraz aksiyaları keçirilən günlərdə Təbrizdə, Ərdəbildə sakitlik olub. Tehranda yaşayan Mehdi Nəimi isə bildirir ki, Misir və Tunisdə baş verənlərdən sonra İran müxalifəti fəallaşsa da, bu fəallıq 2009-cu ilin prezident seçkilərində olduğu kimi deyil: İranda, Tunisdə və Misirdəki olaylardan sonra müxalifət bir az özünü dirçəlmiş kimi hiss etdi. Ona görə tərəfdarlarını mitinqlərə çağırdılar. Ancaq bu seçkidən sonrakı kimi olmadı. Əlbəttə, təbiidir. Prezident seçkilərindən sonra müxalifət güclü görünürdü, ancaq bu günlər müxalifət qat-qat zəif şəraitdə küçələrə çıxıb aksiya keçirdi. İran hakimiyyəti az bir vaxtda onları nəzarət altına ala bildi».

Mehdi Nəimi də deyir ki, azərbaycanlılar yaşıl hərəkata əvvəldən dəstək olmayıblar: *«Çünki bizim məqsəd və hədəflərimizlə yaşılçılar uyğun gəlmir. İkisi də - həm müxalifətin, həm hakimiyyətin Azərbaycan adı gələndə əlləri bir qabda, bir kasada olur».* Azərbaycanlı Siyasi Məhbusları Müdafiə Assosiasiyasının sözçüsü Yaşar Həkkakpur deyir ki, İran müxalifətinin mitinqlərində ayrı-ayrı azərbaycanlılar iştirak etsə də, bütövlükdə onlar baş verənlərə qoşulmurlar. Ona görə ki: *«Musəvi indiyə qədər azərbaycanlıların hüquqlarından ciddi danışmayıb. Konstitusiyada yazılıb ki, fars dilindən başqa o biri dillər də ölkədə işlədilə bilər. Azərbaycanlılar bu haqda məktub yazsalar da, Yaşıl hərəkatın liderləri buna heç bir reaksiya göstərmirlər».*

***Kəbiran Dilavərli***

# Ermənistanda qiymət artımı



Yerevan bazarlarında 50 kq-lıq un kisəsinin qiyməti son ayda 2 dəfə artıb, 13 min dram olub - təxminən 35 dollar. Ötən istirahət günləri 50 kq-lıq kisə min dram bahalanıb, yəni 3 dollara yaxın. İqtisadçılar hesab edirlər ki, Ermənistanda unun bahalaşması bilavasitə dünya bazarlarında taxılın qiymətinin artmasından qaynaqlanır. Bununla belə, ekspert Samvel Avakyan subyektiv amillərin də mövcud olduğunu qeyd edir. Onun sözlərinə görə, əgər fevralın 1-nə kimi dövlət gəlirləri üzrə komitə idxal olunan buğdanın 1 tonunu 250 dollardan hesablayırdısa və bu məbləğdən gömrük rüsumu tuturdusa, fevralın 1-dən 1 ton buğda 350 dollardan hesablanır. Qiymət artımı özünü çox zaman çörəyin qiymətində deyil, onun keyfiyyətində göstərir.

**ERMƏNİSTAN MƏRKƏZİ BANKI NƏ EDİR?**

**Yazının davamını AzadliqRadiosu.az saytında oxumaq olar.**

# Brayza: «Antikorrupsiya təşəbbüslərini alqışlayırıq»



Metyu Brayza

**«Biz Azərbaycan hökumətinin antikorrupsiya sahəsində son təşəbbüslərini alqışlayırıq. Təşəbbüsün davam etdirilməsində və daha da dərinləşdirilməsində kömək göstərməyə hazırıq».**

Fevralın 17-də ABŞ-ın Azərbaycandakı səfiri Metyu Brayza bu fikri deyib. Onun fikrincə, Azərbaycan artıq alternativ ölkə olaraq özünü büruzə verməkdədir: *«Bu, həm də çox müsbət bir alternativdir. Bu, Misirdə baş verən son hadisələrə bir alternativdir. Misirdə əhali və hökumət ekstremizmlə davamlı çətinlik arasında çox çətin seçim etməli oldu. Hesab edirəm ki, Azərbaycan demokratik islahatlar istiqamətində səylərini davam etdirdikcə, nümunəvi uğurlu ölkə olacaq. Bizim birgə görüləsi işlərimiz çoxdur. Amerika hökuməti, səfirlik və media arasındakı əməkdaşlıq mənim bəhs etdiyim məsələlərdə çox mühüm rol oynayır».*

Səfir deyib ki, demokratiya və bazar iqtisadiyyatı sahəsində də Amerika Azərbaycana dəstək verir. O, hərbi əməkdaşlıq sahəsində məsləhətləşmələrin davam etdiriləcəyini də açıqlayıb.

***Durna Səfərli***

# Pensiyalar 2 manat 30 qəpik artacaq



Kənan Aslanlı

**«Pensiyaların artımı qeyri-adi ortaya çıxan artım deyil». AzadlıqRadiosunun «İşdən sonra» proqramında prezidentin əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında sərəncamını şərh edən iqtisadçı Kənan Aslanlı belə deyib.**

Onun fikrincə, bu, illik inflyasiya ilə bağlı olan gözlənilən addımdır: «Hər bir növbəti ilin əvvəlində ötən ilin inflyasiya səviyyəsinə uyğun olaraq əmək pensiyalarının sığorta hissəsi, yəni pensiyaçı nə qədər alırsa, ondan baza hissəni - 85 manatı çıxırlar, qalan sığorta hissəsi həmin o inflyasiya məbləği qədər artırılır. Ötən ildə təqribən orta illik inflyasiya 5.7 faiz olub. Buna müvafiq olaraq prezident növbəti qərar qəbul edib ki, pensiyaların sığorta hissəsi həmin o inflyasiya səviyyəsində artırılsın. Amma bu o qədər də böyük artım deyil».

Kənan Aslanlı bildirir ki, bu qərar ölkədə 617 min pensiyaçıya aiddir. Bunu maliyyələşdirmək üçün isə hökumət bir ayda 1.4 milyon manat vəsait ayıracaq. Bu artımı nəzərə alsaq, hər pensiyaçı üçün orta artım 2 manat 30 qəpikdir. Ekspert deyir ki, bu artım heç bir kilo bananın qiymətinə yaxınlaşmır.

Kənan Aslanlı deyir ki, məqsəd kimi ölkədə olan rəsmi yaşayış minimumu götürülsə, daha yaxşı olar. Rəsmi yaşayış minimumu 95 manatdır, minimum pensiya isə 85 manat. Ekspertin fikrincə, ilkin mərhələdə ən azından bu 10 manatlıq artım edilsə, yaxşı olar. Bunun üçün hökumətin imkanları da az deyil. Çünki bir iş yerinin açılması hökumətə təxminən 26 min dollara başa gəlir. Bunu isə şişirdilmiş rəqəm hesab etmək olar:

*«İstənilən halda, biz belə bir rəqəm ortalığa çıxarmışıq. Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı kreditlərlə nə qədər iş yeri yaranır? Onları müqayisə edəndə görürük ki, bir iş yerini açmaq hökumətə 26 min dollara başa gəlir. Ancaq hətta fərdi sahibkara, fiziki şəxsə belə 26 mini ayırsanız, yəqin ki, birdən daha çox iş yeri yaratmaq imkanı var. Yəni bu, ümumi xərclərin effektsizliyi məsələsidir».*

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun




**Seymur Baycanın "Quqark" adlı yeni romanı çıxdı**



**"Dünya Ədəbiyyatı Kitabxanası" seriyasından daha 4 kitab gəldi**



Xanəmir: **"Bundan sonra ölsəm də vecimə deyil"**



**Lyosa markiz oldu**



**Elif Şafak. Fobisiz yaşanmıyor**

# Norveçdə neft pullarının 1 qəpiyini də xərcləmirlər



**Oslodan dəniz gəzintisinə çıxmaq qeyri-adi bir təəssüratdır...**

**Bilirsiz, Norveçin Azərbaycandan əsas fərqi nədir? Norveçdə neftin satışından gələn pulun bir kronunu da xərcləmirlər. Amma buna baxmayaraq, əhali ildən-ilə varlanır, insanların ömrü uzanır, təhsilin, səhiyyənin səviyyəsi qalxır. Bu cür insan inkişaf indeksinə görə, Norveç BMT-nin reytinqində dünya ölkələri arasında birincidir.**

Norveç sahillərində neft tapılmasını təsadüf də adlandırmaq olar. 50-60 il bundan əvvəl çox az adam inanırdı ki, Norveçdə neft çıxa bilər. Amma Hollandiya Şimal dənizində qaz tapandan sonra norveçli alimlər də məsələyə yenidən qayıtdılar. 1971-ci ildə norveçlilər dənizdəki ilk quyularından neft çıxarmağa başladılar. İndi Norveç dünyada ən çox neft ixrac edən beş ölkədən biridir. Neftin gətirdiyi milyardlar hara getsə yaxşıdır? Axırıncı kronuna qədər xaricə...

Norveçin Maliyyə Nazirliyinin baş direktoru Martin Skanke AzadlıqRadiosuna müsahibəsində deyir ki, neft milyardları ölkədə xərclənmir, Neft Fondunda toplanır. Fond isə həmin pulu bütünlüklə xarici ölkələrdə sərmayə kimi yatırır. Həmin sərmayələrdən qazanılan pulu dövlət büdcəsinə yığır. Bu ona bənzəyir ki, siz aylıq qazancınızı xərcləmirsiz, qoyursuz banka, bankın verdiyi faizi xərcləyirsiz. Bu isə imkan verir ki, bankdakı pulunuz toxunulmaz qalsın, həm də aybaay artsın. Bunun nəticəsidir ki, indi Norveçin Neft Fondunda 250 milyard dollardan çox pul toplanıb və bu məbləğ getdikcə artır.

Azərbaycanda isə müqayisə üçün deyək ki, axır iki ildə neftdən gələn gəliri qəpiyinəcən xərcləyiblər. Rəsmi elan edilən uzunmüddətli strategiya isə belədir ki, neft gəlirlərinin 75 faizi xərclənsin, 25 faizi isə gələcək nəsillərə qalsın. Baxmayaraq ki, Neft Fondunun rəsmi saytına girsəz, görərsiz ki, keçmiş prezident Heydər Əliyevin bu sözləri yazılıb: *«Mənim məqsədim...Neft Fondunu Azərbaycanın gələcək nəsilləri üçün saxlamaqdır».*

Norveçdə Neft Fondunu bölsən adambaşına 50 min dollar düşər... Varlı ölkənin paytaxtı niyə dəbdəbəli deyil? Norveçdəki dilənçilər hardandır? Azərbaycanlı iqtisadçı Osloda nələr dedi? Biz nə etməliyik?

**Rövşən Qənbərovun maraqlı reportajının davamını AzadliqRadiosu.az saytında oxuya bilərsiniz.**

# 10 manata qulaq müayinəsi?..

**Bu, Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həyətində Qarabağ veteranı, İmişlidən gələn Hafiz adlı pasiyentin sual verməzdən də əvvəl dediyi idi.**

**«PULUM YOXDUR, MÜALİCƏ GÖTÜRMƏDİM»**

**- Nədən müalicə olunurdunuz?**

- Böyrəklərimdən.

**- Neçə gün burda qaldınız?**

- Qalmamışam. Sadəcə, gəlmişəm, pulum yoxdur deyə, müalicə götürmürəm.

**- Nə üçün pul istəyirlər?**

- Müalicə aparmaq üçün

**- Nə qədər pul istəyirlər?**

- Fərqi yoxdur nəyə görə istəyirlər. Eləcə pul istəyirlər.

**- Təxminən nə qədər pul istəyirlər ki, sizin imkanınız çatmır?**

- Demirlər də. Deyirsən bax, baxmır. Pula görə baxmır.

**- Siz müraciət etdiniz, baxmadımı sizə?**

- Baxırdı, amma müalicəyə pul istəyirdi.

**- İndi nə edəcəksiniz?**

- Heç nə. Qayıdıb rayona gedirəm.

**«HƏKİMLƏRƏ HALAL OLSUN»**

Xəstəxanaya gələnlər arasında tək-tük pasiyent tapılardı ki, müsahibəyə razılıq versin. Söhbətləşdiyimiz xəstələr və onların yaxınları isə əsasən həkimlərdən razılıq edirdilər.

- Heç xərc çəkməmişik. Yalan demirəm. Həkimlərə də halal olsun. Allah haqqı.

- Dərmanları da özləri verib.

- Mən inanmazdım belədir. Çox gözəl.

- Hamısını xəstəxana verib, bir qəpik pulum çıxmayıb.

İndi isə növbə bizim idi. «100 dəfə eşitməkdənsə, bir dəfə görək» deyib xəstəxananın burun-qulaq-boğaz şöbəsinə üz tutduq. Əməkdaşımızın qulağını həkim müayinə etməyə başladı.

**10 MANATLIQ QULAQ MÜAYİNƏSİ**

Qulaq müayinəsi pasiyentin qulağına «10 manat» pıçıldayışıyla başa çatdı. Bu sövdələşməni həkimin avadanlığını hazırlayan tibb bacısı aparırdı.

**- Axı qapının girişində «pulsuz» yazılıb...**

- O, burda yatan xəstələrə aiddir.



Gəlib- gedənlərə yox.

**- Bəs nə edək, pulumuz yoxdur bizim.**

- 2 manat mənə verin, 10 manat da həkimə. Danışın da həkimlə.

Həkim müalicəni pasiyentə başa salasala əlavə etdi ki, «gücünüz nəyə çatır verin». Gücümüzün «heç nəyə çatmadığını» dedik və həkimlə sağollaşdıq.

Bu il yanvarın sonundan başlayaraq dövlət idarələrində, nazirliklərdə keçirilən iclaslarda korrupsiya hallarının yolverilməzliyindən danışılır. Səhiyyə naziri Oqtay Şirəliyev bildirib ki, «xəstəxanaların kifayət qədər dərman preparatları və sarğı materialları ilə təmin olunmasına baxmayaraq, xəstələrə, onların yaxınlarına hələ də dərman aldırmaq hallarına rast gəlinir».

***Durna Səfərli***

# Prezidentliyə namizəd imtahandan kəsildi



**Qazaxıstanda prezident olmaq istəyən ana dilindən imtahan verməlidir. Bu qayda ilk dəfədir ki, tətbiq olunur.**

...Prezidentliyə namizəd Kanat Yesjanov ana dilindən imtahandan kəsildi. 48 yaşlı iddiaçı özünü müxalifətdən sayır, ancaq heç bir partiyanın üzvü deyil. O həm də işsizdir.

"Attan Qazaxıstan" hərəkatının lideri Amantay Kazı Asılbek isə imtahana, ümumiyyətlə, gəlməyib. Dil komissiyasının sədri müxbirlərə deyib ki, müəllimlər prezidentliyə namizədi 50 dəqiqə gözləyiblər. İndi o, Mərkəzi Seçki Komissiyasına izahat verməlidir ki, imtahana niyə gəlməyib. Qazaxıstanda prezident seçkilərində 3 dəfə iştirak etmiş Asılbekin 68 yaşı var. Asılbeklə eyni gündə Qazaxıstan prezidenti Nazarbayev də gəlib, imtahan verməli idi.

Nazarbayev gəlib və 90 dəqiqə çəkən şifahi və yazılı imtahanı verib.

**ŞİKAYƏTİN XEYRİ YOXDUR**

İmtahan 3 hissədən ibarətdir: komissiya dediyi mövzuda mətn yazmaq, verilən mətni ucadan oxumaq və verilən mövzuda 15 dəqiqəlik nitq söyləmək. İmtahanı 5 professordan ibarət dil komissiyası götürür. Komissiyanın qərarı dəyişdirilə bilməz. Yəni şikayət etməyin xeyri yoxdur.

Qazaxıstan bu imtahan ideyasını qonşu Qırğızıstandan götürüb. Ancaq Qırğızıstanda prezidentliyə namizədlərin dil imtahanı birbaşa televiziya ilə canlı göstərilir. Qazaxıstanda isə imtahan bağlı qapılar arxasında keçirilir. Müxalifət namizədləri iddia edirlər ki, prezidentliyə iddiaçıların ana dilindən məcburi imtahan verməsi siyasi fənddir və məqsəd müxalifət liderlərini seçkidən uzaqlaşdırmaqdır.

**28 SƏHV**

Alqa Partiyasının lideri Vladimir Kozlov prezidentliyə namizədliyini irəli sürmək istəyirdi. Ancaq dil imtahanına görə geri çəkildi. Çünki etnik rusdur və qazax dilini pis bildiyini deyir. Prezidentliyə namizəd Ualixan Kaisarov isə imtahana getdi, ancaq verə bilmədi.

Dil komissiyası bildirib ki, Kaisarov durğu işarələrində, tələffüzdə və üslubda 28 səhv buraxıb.

Musaqali Duambekovun isə "5 üslub səhvi olub" və az səhv etdiyinə görə, o, imtahanı verə bilib.

***Elxan Nəsibli***

**AzadliqRadiosu.az saytında sorğuda iştirak edib rəyinizi söyləyə bilərsiniz**

## Antikorrupsiya kampaniyası haqda nə deyə bilərsiz?

- Artıq real nəticələr var
- Gözdən pərdə asmaq üçün dəyişikliklər var
- Heç nə dəyişməyib
- Qorxurlar deyə, rüşvətin qiymətini qaldırıblar
- Bilmirəm

# AzadlıqRadiosunda verilişlər:

_Unutmayın:_ Siz bu verilişləri canlı dinləyə bilmirsinizsə, istənilən vaxt AzadliqRadiosu.az saytında onların səs yazılışlarına qulaq asa bilərsiniz. Bu, elə də çətin deyil.

| | |
|---|---|
| **İşdən sonra** | **14-24** |
| **Can Bakı** | **İz** |
| **Xüsusi reportaj** | **Panorama** |
| **Qaynar xətt** | **Qafqaz Qovşağı** |
| **Həmyerli** | **Oxu zalı** |
| **Tanınmışlar** | **Hər kəsin haqqı var** |
| **Şəffaflıq** | **Təbriz Ekspress** |

## İşdən sonra
## "İşdən sonra"ya qulaq asın

Debatların, açıq müzakirələrin çatışmadığı bir zamanda "İşdən sonra" verilişi ən aktual mövzular üzrə debatlara, müzakirə və söhbətlərə həsr olunur.
Hər gün saat 17-dən 19-dək "İşdən sonra"nı canlı dinləyin. Canlı dinləyə bilmədikdə onun səs yazılışına sonradan AzadliqRadiosu.az saytından qulaq asa bilərsiniz. Hər bir veriliş haqda xülasəni də buradan oxumaq olar.

# "Simsiz teleqraf"

**GƏNCƏDƏ DA VİNÇİ KODU**



Gəncədə 3 milyon manata yenidən təmir olunmuş Xan bağında divarlardaki kod - əhi. Sizcə, bu nə deməkdir?

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa, anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**
efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## 24 saat

**DİQQƏT! DİQQƏT!**
AzadlıqRadiosunun 13° "HOTBIRD 8" peykində göstəriciləri:

**POLARIZATION:** Vertical
**FREQ:** 12.226 GHZ
**FEC:** 3/4
**NEW SYMBOL RATE:** 27.5 MS/s

TÜRKSAT 42° E

**Kanalın adı** Azadliq VOA Azeri
**Pol:** H
**Tezlik:** 11.862 Ghz
**Sürət:** 27.500 MS/s




## Azərbaycanın ən populyar Ədəbiyyat Portalı

## Verilişlərin vaxtı:

| | |
|---|---|
| Səhər proqramı | $08^{00}$-$10^{00}$ |
| Günorta proqramı | $12^{00}$-$13^{00}$ |
| Təkrarlar | $15^{00}$-$16^{00}$ |
| İşdən sonra | $17^{00}$-$19^{00}$ |
| Kontekst | $20^{00}$-$21^{00}$ |
| Gecə proqramı | $22^{00}$-$24^{00}$ |

## Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41
**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tibilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: ferqlidergi@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz